# Zamana səyahət

# İXTİRALAR

**Oldrix Rujiçka**

**Silvi Sanja**

**İllüstrasiya: Yan Klimeş**



Tərcüməçi:
Üzeyir Hüseynov

qanun nəşriyyatı


$E = mc^2$
Salam!
Gəlin tanış olaq:
mənim adım
Albert Eynşteyndir.


Gəlin keçmiş
zamanlara
səyahət edək.

# Eradan əvvəl 3500-cü il



## GİL ÜZƏRİNDƏ YAZILAR

Uzaq keçmişdə adamlar hadisələri qeydə alar, rəsmlər vasitəsilə öz ideyalarını bölüşərdilər. Eramızdan təqribən 3500 il qabaq rəsmlər stilizasiya edilib, yəni bir növ sadələşdirilib yazılırdı və elə həmin zaman da Şumerdə gil lövhəciklər üzərində yazı sistemi meydana çıxdı.

Papirus bataqlıq ərazilərdə bitən cildən (qumotundan) hazırlanırdı. Saplaqları suda isladılır, sonra preslənərək qurudulurdu.

Nə qədər ki gil hələ yumşaq idi, mirzələr üzərində qamış çubuqla pazşəkilli rəmzlər cızırdılar. Bu rəmzlər müasir yazılarda olduğu kimi hərfləri deyil, hecaları əks etdirirdi.



## PAPİRUS

Bizim eradan təqribən 3500 il əvvəl Qədim Misirlilər papirus üzərində yazı yazmağa başladılar. Bu da nəhəng gil lövhələri əvəz edirdi. Papirusdan, demək olar ki, 5000 il istifadə edilib, hətta ondan kitabxana düzəldib papirusun şərəfinə “biblios” adlandırmışdılar ki, bu da yunan dilində “papirus” deməkdir.









## TƏKƏR

Bizim eradan 3200 il əvvəl şumerlər təkəri ixtira etdilər. Hətta bəzi mənbələrə görə ondan da 1500 il əvvəl. Bu ixtira bu günə qədər aktualdır: məhz təkərin sayəsində biz velosipedlə gəzir, maşın sürürük. Bu tapıntı həm də dulusçuluq çarxı, su və yel dəyirmanlarını hərəkətə gətirən çarx deməkdir. İndi hara baxırsan, təkər və çarxdan istifadə olunduğunu görürsən.



# Şumerlər





## ŞUMERLƏR

Dəclə və Fərat çayları arasında – cənubi Mesopotamiyada məskunlaşan şumerlər mədəni insanlar idi. Bura təqribən müasir İraqın ərazisidir. Şumerlər eramızdan əvvəl 4000–2000-ci illərdə yaşamışlar. Onlar təkərlə yanaşı, çox sayda başqa ixtiralarla da bəşəriyyətə hədsiz fayda vermişlər: rəqəmlərin toplanması və bölünməsi, dövlət quruluşu, ilin 12 aya bölünməsi, çöllərin əkin sahəsinə çevrilməsi, dulus çarxları, kərpiclər, məktəblər onların ixtirasıdır.




## DULUS ÇARXI

Sənətkarlar dulus çarxından hələ eramızdan 3100 il qabaq istifadə edirdilər.

Dulusçu bir əliylə ağac və ya daş platformanı fırladır, digər əli ilə öz aşyasına lazım bildiyi formanı verirdi.






## HESAB

İlk hesablar eramızdan 5000 il əvvəl meydana çıxıb və “abak” adlanıb. Bu, yunan dilində “lövhə” deməkdir. Hesabın köməyi ilə nəinki toplama və çıxma, hətta vurma və bölmə əməliyyatı da aparılırdı. Abak müasir kompüterin ulu babası sayıla bilər.



**İnanmaq olmur ki, əcdadlarımız 5000 il əvvəl xizəkdə sürüşüblər.**






## XİZƏKLƏR

Naməlum rəssam hələ eradan 3000 il əvvəl – tunc dövründə qayada xizəkçi şəkli çəkmişdir. Lakin ehtimala görə bizim əcdadlarımız xizəyi 2000 il əvvəl ixtira etmişdilər. Belə ki, Sibirdə və Skandinaviyada tapılan ağac lövhələrdə xizək rəsmləri çəkmişlər.